

## Vahid Əziz

*Ədəbiyyata 1966-cı ildə gəlib. "Mən küləyi görürəm " adlı ilk şerlər kitabı 1969-cu ildə işıq üzü görüb. Sonralar "Aylı pəncərə", "İllərin baharı", "Əllərimin kölgəsi", "Ten moix ruk"/rus dilində Moskvada/, "Dözmək olmur" adlı kitabları nəşr olunub. Son iki ildə "Gənclik" nəşriyyatı tərəfindən 5 cildlik seçilmiş əsərlərinin iki cildi oxucuların ixtiyarına verilib. Görkəmli Anqola şairi Aqostinyo Netonun "Azadlıq nəğmələri" adlı kitabını, məşhur rus şairləri S.Yeseninin, V.Mayakovskinin, Y. Yevtuşenkonun, A.Bartonun şerlərini dilimizə tərcümə edib.*

*Şerləri müxtəlif dillərə tərcümə olunub, sözlərinə bir sıra populyar mahnılar yazılıb: "Əzizim", "Bayatılar", "Ulu Tanrı, bunu səndən gözləməzdim", "Ay yalançı", "Dərdindən kim öləcək?", "Qurban olum", "Sevdiyini niyə danırsan?", "Qoy işığı söndürüm", "Gecələr keçir", "Zalım balası" və s.*

### BƏLA QARABAĞIN BAŞINDAYIMIŞ...

**Az qaldı qolumu fələk aparsın, -
Gözü üzüyümün qaşındayımış,
Sən demə, gəlibmiş torpaq qoparsın -
Bəla Qarabağın başındayımış!**

**Gennən tanımışdım neçə zalımı, -
Vaxtında salmışdım qalmaqalımı,
Söküb-talayanda dədə malımı,
fikri düşmənimin xaçındayımış!**

**Xəcalət çəkirəm baş qaldıranda,
Gah Vanda xar olduq, gah Çaldıranda,
Bizimki "haxçiyə" toy çaldıranda
Qaynı-qaynatası Laçındayımış!**

**Düşmən var, yalvarıb - "getmə, qal!" - dedik,
Danışan dillərə - "olsun lal!" - dedik,
O qədər axmağa - "Ağsaqqal" - dedik, -
Tilsimi ağaran saçındayımış!**

**Yazıqlar bu yurda məhəbbətimə,
Hayıfdır tapdanan ləyaqətimə,
Dözmürəm sızlayan aqibətimə -
Ağıl bu Vətənnən qaçandayımış?!**

**Dayanın, keflənib süzən xainlər,
Dünyanı yurd sanıb gəzən xainlər,
Düşmənlə duz-çörək kəsən xainlər, -
Günah hansı şahın tacındayımış?!**

**Ey Vətən, dərk elə - Şuşasız qalan,
Bir kordu - eynəyi şüşəsiz qalan,
Unutma, Dəli Dağ, Göyçə, Savalan...
Xata qapıları açandayımış...**

26.09.2006

### HAYIF

**Qədrimi bilmədin, sənin yolunda
Yanıb, ağartdığım tellərə hayıf,
Qalsın bir tərəfə kor olmağım da -
Hayıf, axıtdığım sellərə - hayıf.**

**Qapını din-iman döyməzmiş sənin,
Qəddini fələk də əyməzmiş sənin,
Qoynunda ölməyə dəyməzmiş sənin -
Məhv edib dərdiyim güllərə - hayıf.**

**Eşqinnən nə payız, nə yaz bilirdim,
Məkrin var, ədan var...bir az - bilirdim,
Göyləri sevgimə dayaz bilirdim,
Arxanca yalvaran əllərə - hayıf.**

**Adicə bir sözü bəhanə etdin,
Sönmüş çırağa da pərvanə etdin,
Tanrım, kimə görə divanə etdin, -
Başıma tökdüyüm küllərə - hayıf.**

**Səbrimi daşdıran qızıl canıdı bu,
Təskinlik gəzənə bir əncamdı bu,
Sənə - daş, özümə sərəncamdı bu.
Sənə itirdiyim illərə hayıf...**

12.04.2004

## MƏNİ BU MƏHƏBBƏT XAR EDƏCƏKDİ

*Həyatım, deyəsən havalanmışam:*
*Məni bu məhəbbət xar edəcəkdi,*
*Çölümdə baharam, içimdə qışam -*
*Həsrətin od vurub, qor edəcəkdi,*

*Qurbanam, qayıtma yuxuma bir də,*
*Qorxuram xətrinə toxunam bir də,*
*Rəhm et, o nəğməni oxuma bir də -*
*Məni pıçıltılar kar edəcəkdi.*

*Neynim ki, çox işin gəlmir xoşuma,*
*Ömrüm sənə görə keçdi boşuna,*
*Ya bir daş salacaq bu eşq başıma,*
*Ya da gözlərimi kor edəcəkdi.*

*Canımdan əl çəkib, getmir ağrılar,*
*Ağladım o ki var, güldüm o ki var,*
*Kömürdən ziyadə bu bəxtim ki, var -*
*Səni özgəsinə yar edəcəkdi...*

## UNUT

*Sənə sədaqətdən nə and içim ki, -*
*Yola sal, qayıdıb gəlməsəm - unut,*
*İmkan ver, yolları elə seçim ki,*
*Qəlbimi səninlə bölməsəm - unut.*

*Dəryayam, çəkilib - qabarar sinəm,*
*Çəkdiyin dağlara yalvarar sinəm,*
*Ölsəm də, qalsam da - yenə səninəm,*
*Mən səni ürəyim bilməsəm - unut.*

*Od vuran kim oldu, yanan kim oldu,*
*Bizləri dərdlərə salan kim oldu,*
*Bəlkə də birləşdik, bəxt hakim oldu -*
*Ömürlük üzünə gülməsəm - unut.*

*O qədər unudan, unudulan var;*
*O qədər ağlayan, ağladılan var...*
*Gətir, həyatımı özümə qaytar, -*
*Bir daha yolunda ölməsəm - unut!*

## SƏNƏ GÖRƏ İNANMIRAM TALEYƏ

*Bu oyunu uydurmuşdun sən özün,*
*Mən qaçırdım, sən qovurdun-qovurdun...*
*İndi alış, bu alovun, bu közün, -*
*Ürəyimi həsrətində qovurdun.*

*Bir ləkəsiz damla idim - donmuşam,*
*Bir kölgəsiz ayna idim - sınmışam,*
*Hönkürmüşəm, gözlərimi yummuşam, -*
*Hardan bilim, bəlkə birdən çağırdın.*

*Mən nə deyim bu küləyə, bu mehə,*
*Gözlərimdən çəkilməyən bu şehə,*
*Sənə görə inanmıram taleyə -*
*Ümidimi nə yaşatdın, nə qırdın.*

*İndi düşüb oba-oba gəzirsən,*
*Şübhələri qova-qova gəzirsən,*
*Nahaq qaçıb yuva-yuva gəzirsən -*
*Özün məni yad qoynuna uçurdun...*

## YANDIRMASIN...

**Od vurmusan, bir az ağla -**
**Külüm səni yandırmasın,**
**Ləçəyinnən peyman bağla -**
**Gülüm səni yandırmasın.**

**Mənsiz qalan yuvana bax,**
**Gözlərimlə davana bax,**
**İçimdəki tufana bax -**
**Çölüm səni yandırmasın.**

**Gəl, zamanı dala döndər,**
**Dodağını bala döndər,**
**Öpüşlərlə lala döndər -**
**Dilim səni yandırmasın.**

**Məndən uzaq salma səni,**
**Yad əllərdə solma səni,**
**Əllərimdən alma səni -**
**Əlim səni yandırmasın.**

**Vahid ƏZİZ, bu da sevgi,**
**Daha nə qurban verim ki,**
**Qoy, yanında can verim ki, -**
**Ölüm səni yandırmasın...**

**12.02.2006**